Nobel mükafatı almış bakılı fizik



Azərbaycanın dünya elminə bəxş etdiyi şəxsiyyətlərdən biri də akademik, Nobel, Lenin və üç dəfə Stalin mükafatları laureatı, Sosialist Əməyi Qəhrəmanı, Danimarka və Niderland Elmlər akademiyalarının, Amerika Elmlər və İncəsənət Akademiyasının (ABŞ), Fransa Fizika Cəmiyyətinin, London Fizika Cəmiyyətinin və London Kraliça Cəmiyyətinin üzvü, XX yüzilliyin əfsanəvi fiziki Lev Davidoviç Landaudur.

Böyük fizika alimi, dünyaşöhrətli Lev Landau 1908-ci il yanvar ayının 22-də Bakı şəhərində yəhudi ailəsində dünyaya gəlmişdir. Atası David Landau Balaxanı neft mədənlərində mühəndis, anası Lyubov Veniaminovna Qarkavi isə ginekoloq idi. 8 yaşında Bakıda gimnaziyaya daxil olan Landau 12 yaşında orta təhsilini əla qiymətlərlə başa vurmuşdur. Fitri istedada sahib yeniyetmə erkən yaşlarından riyaziyyat elminə böyük maraq göstərmişdir. Gimnaziyanı bitirdikdən sonra yaşı az olduğu üçün universitetə qəbul oluna bilməmiş, Bakı İqtisadiyyat Texnikumunda təhsilini davam etdirmişdir. 1922-ci ildə 14 yaşında ikən tələbə adı qazanmışdır. Landau Bakı Dövlət Universitetində eyni vaxtda iki fakültədə - fizika-riyaziyyat və kimya ixtisasları üzrə təhsil almışdır.





1924-cü ildə Leninqrad Universitetinin Fizika fakültəsinə göndərilmiş və buranı 1927-ci ildə bitirmişdir. Leninqrad Fizika-Texniki İnstitutunda aspiranturaya qəbul olunmuş, 21 yaşında doktorluq dərəcəsini almışdır. 1929-cu ildə o, Götingen və Leypsiqdə qısa müddət qaldıqdan sonra, Kopenhagenə yollanır. Burada Nils Borun Nəzəri Fizika İnstitutunda çalışmağa başlayır. Landau həmişə özünü Borun tələbəsi hesab etmişdi. Lakin məhz Bakıda aldığı təhsil onun gələcək elmi axtarışlarının və nailiyyətlərinin, nəzəri fizikaya gətirdiyi fundamental və klassik yeniliklərin, ümumiyyətlə, fizika elmində və nəzəri fizika sahəsində yaratdığı böyük məktəbin əsası olmuşdur. Alimin elmi nailiyyətləri arasında kvant mexanikasında sıxlıq matrisi metodunun kəşfi, diamaqnetizmin kvant nəzəriyyəsi, ifrat axıcılıq nəzəriyyəsi, ikinci növ faza keçidləri, ifrat keçiriciliyin Qinzburq - Landau nəzəriyyəsi, plazma fizikasında Landau sönməsinin izahı, kvant elektrodinamikasında Landau qütbü və iki-komponentli neytrinoların nəzəriyyəsi misal göstərilə bilər.

Lev Landau 1929-cu ilin oktyabr ayında Berlin Universitetində Albert Eynşteynlə görüşü zamanı onunla söhbət aparmaq istəyini bildirir. Albert Eynşteyn 21 yaşlı Landaunu evinə dəvət edir. Nisbilik nəzəriyyəsi ilə elmdə inqilab etmiş nəhəng nəzəriyyəçi fiziklə, hər alim elmi polemikaya cürət etməzmiş. Lakin Lev Landau çəkinmədən belə bir addım atır və Albert Eynşteynlə görüşdə qeyri-müəyyənlik prinsipinin kvant mexanikasının əsas prinsipi olduğunu sübut etməyə çalışır. Landaunun aydın və dəqiq mülahizələri Eynşteynin xoşuna gəlir.

Landau Kopenhagendən sonra, Kembric və Sürixə yollanmış və yenidən SSRİ-yə qayıtmışdır. 1932-1937-ci illərdə Xarkov Mexanika və Maşınqayırma İnstitutunun nəzəri fizika kafedrasına rəhbərlik etmişdir. 1936-1937-ci illərdə Lev Landau "Fazaların ikinci növ dəyişmələri" və "Yüksəkkeçiricilərin aralıq vəziyyəti" nəzəriyyəsini yaradır, bu problemlərə həsr olunmuş elmi məqalələrlə çıxışlar edir. Həmin dövrdə L.Landau artıq məşhur nəzəriyyəçi fizik kimi tanınırdı. 1937-ci ilin fevral ayında o, Moskva Fizika Problemlər İnstitutuna dəvət olunur və nəzəriyyə şöbəsinə rəhbərlik edir.

Elmi nailiyyətlərlə yanaşı, Landau həm də Sovetlər Birliyində nəzəri fizika elminin əsasını qoymuşdur. Onun yaratdığı məktəb sovet elminə Lev Pitayevski, Aleksey Abrikosov, Arkadi Levanyuk, Yevgeni Lifşits, Lev Qorkov, İsak Xalatnikov və Boris Yoffer kimi fiziklər bəxş etmişdir. Xarkovda işlədiyi dövrdə dostu və keçmiş tələbəsi Y.M.Lifçitslə birgə ön cildlik məşhur Nəzəri Fizika Kursu kitabını yazmışdır. Landau tələbələrinə diqqət və qayğı ilə yanaşmış, nəzəri minimum adlı əhatəli imtahan proqramı işləmiş və yalnız bu imtahandan keçən tələbələri öz məktəbinə qəbul etmişdir. İmtahan nəzəri fizikanın bütün aspektlərini əhatə etmişdir. Yalnız 43 nəfər bu imtahandan keçə bilmişdir.

1937-ci il bütün ölkəni bürümüş repressiyası dahi alimdən də yan ötməmişdir. Xarkovdan Moskvaya gələn alim 1938-ci ilin 17 aprel tarixində təhlükəsizlik xidməti tərəfindən saxlanılmış və 1939-cu il aprel ayının 19-na qədər həbsdə olmuşdur. Landaunun həbs edildiyini eşidən Nils Bor dəhşətə gələrək, bu böyük alimin dünya fizika elmi üçün nə qədər əhəmiyyətli olduğunu əks etdirən məktubla İosif Stalinə müraciət edərək, alimin həbsdən azad edilməsini xahiş etmişdir. Onun və həmkarı Pyort Kapitsanın Stalinə yazdıqları məktubların sayəsində Lev Landau 1939-cu ilin 29 aprelində azadlığa buraxılmışdır.

Lev Landau deyərmiş: "Həyat o qədər qısadır ki, elmdə məlum olan məsələlərə yenidən qayıtmaq vaxt itkisidir". Onun bu sürəti və dəqiqliyi bütün titullarına vaxtından əvvəl çatmasına səbəb olmuşdur. Belə ki, 26 yaşında dissertasiya müdafiəsi keçmədən fizika-riyaziyyat elmləri doktoru, 38 yaşında akademik və SSRİ-nin ən ali Dövlət mükafatlarının sahibi, bir sıra dünya ölkələrinin elmlər akademiyasının akademiki adına layiq görülmüşdür.

1962-ci il yanvar ayının 7-də Landau ağır avtomobil qəzasına düşür. O, Moskva şəhərinin Timiryazev rayonunun 50 nömrəli xəstəxanasına aparılır. Ciddi xəsarət alan alim üç ay komada qalır. 1962-ci ilin sentyabr ayında SSRİ Elmlər Akademiyasının xəstəxanasına köçürülür. Həmin il Landau ona Nobel mükafatı verilməsi haqqında teleqram alır. Nobel Komitəsinin tarixində ilk dəfə xüsusi hal kimi məşhur fizik Lev Landaunun Stokholma gedə bilməməsi nəzərə alınaraq Nobel mükafatını İsveçin Moskvada olan səfiri alimə xəstəxanada təqdim edir. Aldığı xəsarətdən tamamilə sağalmayan və fəaliyyətini davam etdirə bilməyən Lev Landau 1968-ci il aprel ayının 1-də Moskva şəhərində vəfat edir.

Ramidə YAQUBQIZI,
"Respublika".